# 2011-ci ildə Dövlət Statistika Komitəsinin fəaliyyəti

Dövlət Statistika Komitəsinin 2011-ci ildə fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarından, Nazirlər Kabinetinin qərarlarından statistika orqanları üçün irəli gələn vəzifələrin, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin, Nazirlər Kabineti ilə razılaşdırılaraq təsdiq edilmiş "2011-ci il üçün statistik işlər Proqramı"nın, "2008-2012-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramı"nda 2011-ci ildə icrası nəzərdə tutulan tədbirlərin, "2011-ci il üçün metodoloji iş planının", "2011-ci ildə Dövlət Statistika Komitəsinin şöbələri tərəfindən istifadəçilərlə keçiriləcək seminarlar" və "İqtisadi təhlillər" üzrə iş planlarının, BMT-nin AİK, Avrostat və Avropa Azad Ticarət Assosiasiyası tərəfindən həyata keçirilmiş Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin fəaliyyətinin Qlobal Qiymətləndirilməsində verilmiş tövsiyələrin yerinə yetirilməsinə yönəldilmişdir. 2011-ci ildə aparılan işlərin əsas istiqamətləri dövlət orqanlarını və digər istifadəçiləri ölkənin sosial-iqtisadi vəziyyəti, həyata keçirilən davamlı sosial-iqtisadi islahatlar, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası haqqında statistik məlumatlarla təmin etməkdən, beynəlxalq statistika təşkilatları və digər ölkələrin statistika xidmətləri ilə əməkdaşlıq əsasında rəsmi statistika sahəsində qanunvericilik aktlarının, statistik müşahidələrin, statistik göstəricilərin və onların metodologiyasının daha da təkmilləşdirilməsindən, iqtisadi-statistik təsnifatlar sisteminin inkişaf etdirilməsindən, müasir kompüter texnologiyasından istifadə etməklə respondentlərə düşən məlumat yükünün minimuma endirilməsindən, statistika işlərində istifadə olunan informasiya texnologiyalarının təkmilləşdirilməsindən, statistik metaməlumatlar sisteminin yaradılması və keyfiyyətin idarə edilməsi sisteminin tətbiq edilməsindən ibarət olmuşdur.

Avropa Qonşuluq Siyasəti çərçivəsində Avropa İttifaqı – Azərbaycan Fəaliyyət Planının Statistika bölməsinin "Qanunvericilik bazasının Avropa İttifaqının Statistika İdarəsinin tövsiyələrinə uyğun olaraq təkmilləşdirilməsi" hissəsinə və BMT-nin AİK, Avrostat və Avropa Azad Ticarət Assosiasiyası tərəfindən 2010-cu ilin 14-18 iyun və 2-3 dekabr tarixlərində həyata keçirilmiş Azərbaycan Respublikası Milli Statistika Sisteminin Qlobal qiymətləndirilməsində verilmiş tövsiyələrə uyğun olaraq "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihəsi hazırlanmış, Azərbaycan Respublikası Milli Məclisinin 15 noyabr 2011-ci il tarixli qərarı ilə təsdiq edilmişdir. Bundan əlavə, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına və sərəncamlarına dəyişikliklər və əlavələr edilməsi barədə" ölkə Prezidentinin 15 fevral 2011-ci il tarixli, 381 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"də dəyişikliklər və əlavələr edilmişdir.

Ölkədə milli statistikanın inkişafının strateji əsaslarını təşkil edən "2008-2012-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramı"nın, habelə Dövlət Statistika Komitəsinin icraçı kimi iştirakı nəzərdə tutulmuş digər ("2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair", "Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə (2007-

2012-ci illər)", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair", "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair" dövlət proqramlarının yerinə yetirilməsi istiqamətində işlər davam etdirilmiş və 2011-ci ildə icrasının başa çatması planlaşdırılmış 43 (o cümlədən digər dövlət proqramları üzrə 12) tədbir həyata keçirilmişdir. Beləliklə, "2008-2012-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramı"ndan 4 il ərzində 91 tədbir tam icra olunmuşdur ki, bu da Proqramda nəzərdə tutulan tədbirlərin 78,4 faizini təşkil edir. Ümumiyyətlə, Dövlət Proqramı ilə bağlı 2011-ci ildə 31, 4 il ərzində isə 170 iş yerinə yetirilmişdir. Yerinə yetirilən işlər Dövlət Proqramının bütün bölmələrini və yuxarıda sadalanan dövlət proqramlarında Dövlət Statistika Komitəsi əsas icraçı kimi nəzərdə tutulmuş bütün işləri əhatə etmişdir.

Hesabat dövründə əhalinin 2009-cu ildə keçirilmiş siyahıyaalınmasının yekunlarının alınması diqqət mərkəzində olmuş, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında 2009-cu ildə əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" Fərmanına və Nazirlər Kabinetinin "2009-cu ildə əhalinin siyahıyaalınmasına hazırlıq işlərinin görülməsini və onun keçirilməsini təmin edən tədbirlər haqqında" qərarına uyğun olaraq, yekun üzrə materialların son 14 cildi (cəmi 22 cild) nəşr edilmişdir.

Azərbaycan statistikasının beynəlxalq statistika birliyinə inteqrasiyasının bir çox hallarda statistik informasiyanın işlənməsi və yayılması metodologiyasının inkişafı ilə əlaqədar olduğunu nəzərə alaraq, 2011-ci ildə də statistik metodologiyanın təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması işi davam etdirilmiş və bu iş statistik fəaliyyətin bütün istiqamətlərini, makroiqtisadi statistikanı, həyat səviyyəsi, əmək, qiymət və müəssisələr statistikasını əhatə etmişdir. İl ərzində Komitə tərəfindən ümumilikdə 32 metodoloji iş yerinə yetirilmiş və onlar aşağıdakı mövzuları əhatə etmişdir:

Müayinələrin keçirilməsi ilə bağlı "Ölkə sərhədini keçən Azərbaycan və xarici ölkə vətəndaşları", "Məktəbdə davamiyyət səviyyəsi" , "Meşə fondu və sair torpaqlarda meşə məhsullarının tədarük edilməsi", "Əhalinin iqtisadi fəallığı", "Müəssisənin texnoloji innovasiyaları", "Dekorativ məhsulların istehsalı", "Bağçılıq təsərrüfatlarının fəaliyyəti", "Mənzil bazarında qiymətlərin müşahidəsi", "Ətraf mühitin mühafizəsinə çəkilən xərclər", "Boşanma hallarının səbəblərinin öyrənilməsi", "Sağlamlıq imkanları məhdud olan şəxslərin iqtisadi əmək fəaliyyətinə cəlb olunması şərtləri", "Cins mal-qara və quşların uçotu" haqqında metodoloji göstərişlər, "Göl və nohur balıqçılığı", "Müəssisənin (təşkilatın) istehsal fəaliyyəti, maliyyə nəticələri və əmlakı", "Festivallar", "Kinofilmlərin istehsalı", "Milli parklar, dövlət təbiət qoruqları və yasaqlıqlar", "Malların istehsalı və yüklənməsi (göndərilməsi), obyektlərin tikintisi və xidmətlərin göstərilməsi", "Tikinti maşınlarının mövcudluğu", "Aviasiya nəqliyyatının işi və əsas göstəriciləri", "Aviasiya nəqliyyatının işi", "Hava gəmilərinin parkı və onlardan istifadənin təqvim vaxtı", "Xam neft və təbii qaz hasilatı ilə məşğul olan müəssisələrin energetikası", "Qaz təchizatı müəssisələrinin energetikası", "Neft (qaz) emalı müəssisələrinin energetikası", "Neft quyularının istismarı", "Qaz quyularının istismarı"na dair rəsmi statistika hesabatı formalarının tərtibi ilə bağlı təlimatlar, "Turizmin növləri, turistlərin yerləşdirilməsi və xərclərinin təsnifləşdirilməsi", "Tikinti işlərinin və xidmətlərin qiymətləri üzrə hesabat formalarının tərtib edilməsi və qiymətlərə dair statistik məlumatların proqrama daxil edilməsi", "Mövsümi düzəlişlərin aparılması və

"Demetra" proqramından istifadə", "Əsas kapitalın istehlakının MHS əsasında hesablanması"na və, "Nəqliyyat, poçt və telekommunikasiya xidmətləri üzrə tarif indekslərinin hesablanması"na dair metodoloji materiallar hazırlanaraq təsdiq olunmuş və təcrübədə istifadəsinə başlanmışdır.

Göstərilən metodoloji materiallardan əlavə, biznes və energetika statistikası üzrə statistik idarəetmə sistemlərinə dair mövcud proseslərin metodoloji konsepsiyaları, habelə "Statistika üzrə əsas metodoloji göstərişlər" külliyyatının IV cildi hazırlanaraq istifadəçilərin ixtiyarına verilmişdir.

Ölkənin sosial-iqtisadi vəziyyətini əks etdirən göstəricilər sisteminin formalaşdırılması və beynəlxalq analoqlara uyğunlaşdırılması, bununla bağlı olaraq rəsmi statistika hesabatlarının təkmilləşdirilməsi və yeniləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir. İl ərzində 4 yeni rəsmi statistika hesabatı forması təsdiq edilmiş, 22 hesabat forması ləğv edilmiş və 101 hesabat formasının göstəricilərində dəyişikliklər edilmişdir. Respondentlərə düşən statistika yükünün azaldılması istiqamətində aparılan işlərin nəticəsində rəsmi statistika hesabatları 18 ədəd azalaraq 2012-ci il yanvarın 1-i vəziyyətinə 279 ədəd olmaqla (01.01.2011-ci il vəziyyətinə 297 olmuşdur) onlardakı göstəricilərin sayı 113745, o cümlədən statistika orqanları tərəfindən icmallaşdırılan rəsmi statistika hesabatları 164 ədəd və onlardakı göstəricilərin sayı 39658 olmuşdur. Rəsmi statistika hesablarının sayı ildən-ilə azalsa da, hələlik respondentlərə düşən yükün azaldılması işi ləng həyata keçirilir. Bunu nəzərə alaraq, Dövlət Statistika Komitəsi müxtəlif mərkəzi icra hakimiyyəti orqanlarında olan inzibati mənbələrdən istifadə edilməsi istiqamətində məqsədyönlü iş aparır. Bu məqsədlə 2011-ci ildə Dövlət Statistika Komitəsi ilə Dövlət Sosial Müdafiə Fondu və Mərkəzi Bank arasında məlumatlar mübadiləsi haqqında razılaşmalar imzalanmışdır.

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu"nun 1-ci maddəsinin 1.0.22-ci bəndinin icrasını təmin etmək məqsədilə Dövlət Statistika Komitəsi tərəfindən təsdiq olunan texniki normativ hüquqi aktların (dövlət statistika müşahidələrinin formaları və onların doldurulmasına dair göstərişlərin, statistik göstəricilərin formalaşdırılması və hesablanması qaydalarının, dövlət statistika müşahidələrinin təşkil edilməsinə və aparılmasına dair təlimatların, idarədaxili hesabat formaları və onların doldurulmasına dair göstərişlərin) Ədliyyə Nazirliyində yaradılmış Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində qeydiyyata alınmasına başlanmışdır.

Hesabat dövründə milli təsnifatlar sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması Azərbaycan statistikasının prioritet vəzifələrindən biri olaraq qalmışdır. Bununla əlaqədar olaraq, "Ətraf mühitin mühafizəsi üzrə fəaliyyət növləri və çəkilən xərclər", "Enerji məhsulları" və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə birlikdə "İnformasiya və kommunikasiya texnologiyaları xidmətləri"nin təsnifatları hazırlanmış, irad və təkliflərinin bildirilməsi üçün aidiyyəti üzrə nazirlik, komitə, şirkət, səhmdar cəmiyyətləri və digər təşkilatlara göndərilmiş, alınmış cavablar təhlil edilərək bir sıra düzəlişlər edilmiş və Dövlət Statistika Komitəsinin qərarları ilə təsdiq olunmuşdur. Təsnifatlar Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində dövlət standartı kimi qeydiyyata alınmış, nəşr edilmiş və istifadəçilərə çatdırılmışdır. Bundan əlavə, təsnifatların yeni versiyalarına uyğun olaraq mövcud dinamika sıralarının yenidən hesablanması və məlumatların müqayisəliliyinin təmin olunması məqsədilə "Məşğulluq"

təsnifatının 2010-cu ilədək qüvvədə olan (2000-ci il nəşri) variantı ilə yeni variantı (2010-cu il nəşri) arasında, "Ev təsərrüfatlarında şəxsi (fərdi) istehlak məqsədləri üçün istifadə edilən mal, məhsul və xidmətlərin təsnifatı" ilə "Məhsul növləri təsnifatı"nın üçüncü variantı arasında keçid "açar"ları və təsnifatlardan istifadəni azaltmaq üçün "Məhsulun (mal və xidmətin) statistik təsnifatı"na izahların 1-ci cildi hazırlanaraq təcrübədə istifadəsinə başlanmışdır.

İstehsal olunan statistik məlumatların beynəlxalq standartlara uyğunluğunu və müqayisəliliyini təmin etmək və bu sahədə Dövlət Statistika Komitəsinin fəaliyyətini daha da təkmilləşdirmək məqsədilə Avrostatın "Statistikaya tələblər külliyyatı" tərcümə edilərək komitənin struktur bölmələri və tabeliyində olan təşkilatlar arasında yayılmışdır.

Əldə olan nailiyyətlərdən biri də, müşahidə obyektlərinin məcmusunun formalaşdırılması üzrə əsas alət kimi, Statistik vahidlərin Dövlət registrinin müasir tələblər səviyyəsində qurulmasının başa çatdırılması olmuşdur. İl ərzində Vergilər Nazirliyindən alınmış məlumatların Statistik vahidlərin Dövlət registrinin strukturuna uyğunlaşdırılması və registrin 2010-cu ilin yekunları üzrə aktuallaşdırılması həyata keçirilmiş və 2011-ci il yanvarın 1-i vəziyyətinə SVDR-də statistik vahidlərin sayı 440 minə yaxın, əhali təsərrüfatlarının sayı isə 850 mindən çox olmuşdur.

Milli Hesablar Sisteminin daha da təkmilləşdirilməsinə xüsusi diqqət yetirilmişdir. Bu təkmilləşdirmələr MHS-2008-in tələblərinin ölkə statistika praktikasında tətbiqi yolu ilə həyata keçirilmişdir. Maliyyə vasitəçiliyi üzrə şərti hesablanmış xidmətlər buraxılışının qiymətləndirilməsi və iqtisadiyyatın sektorları arasında bölüşdürülməsi üsulları MHS-2008-in tələblərinə uyğun təkmilləşdirilərək 2010-cu ilin yekunlarından milli hesablar statistikasının göstəricilərinin hesablanmasında tətbiq edilmişdir. Elmi tədqiqat və işləmələr üzrə xidmətlərin 2008-ci ilin MHS-in tələblərinə uyğun yeni tələb olunan göstəriciləri müvafiq rəsmi statistika hesabatlarına əlavə olunmuşdur. Beləliklə, MHS-nin baza strukturuna daxil olan hesabların MHS-in tələblərinə uyğun formalaşdırılması təmin edilmişdir.

Hazırlanmış göstəricilər sisteminə uyğun olaraq, informasiya cəmiyyətinin inkişafının monitorinqinin təşkili məqsədilə ölkədə statistika təcrübəsində daha çox yeni seçmə müayinələrin keçirilməsi tələb olunur. Buna uyğun olaraq, 2011-ci ildə "Ölkə sərhədini keçən Azərbaycan və xarici ölkə vətəndaşları", "Məktəbdə davamiyyət səviyyəsi", "Meşə fondu və sair torpaqlarda meşə məhsullarının tədarük edilməsi", "Əhalinin iqtisadi fəallığı", "Dekorativ məhsulların istehsalı", "Fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında heyvandarlığın vəziyyəti", "Bağçılıq təsərrüfatlarının fəaliyyəti", "Mənzil bazarında qiymətlər", "Ətraf mühitin mühafizəsinə çəkilən xərclər", "Boşanma hallarının səbəbləri", "Sağlamlıq imkanları məhdud olan şəxslərin iqtisadi əmək fəaliyyətinə cəlb olunması şərtləri", "Müəssisənin texnoloji innovasiyaları" mövzusunda 12 müayinə keçirilmişdir.

Aralarında dövlət orqanları, biznes cəmiyyəti, elm, ictimai təşkilatlar və əhali olan müxtəlif qrup istifadəçilərin tələbatının ödənilməsinə yönəldilmiş müasir rəsmi statistika ölkənin həyatının çoxlu aspektlərini əhatə etdiyini və onun inkişafının, iqtisadi sabitliyinin və Azərbaycanın dünyaya inteqrasiyasının zəruri elementi olduğunu, rəsmi statistikanın informasiya sisteminin mühüm tərkib hissəsini təşkil etdiyini, mərkəzi və yerli idarəetmə orqanlarının sosial-iqtisadi vəziyyət üzrə idarəçilik qərarlarını qəbul edərkən rəsmi statistikanın məlumatlarına əsaslandığını nəzərə alaraq, il ərzində bütün istifadəçilərin sosial,

iqtisadi, demoqrafik və ekoloji vəziyyət haqqında tam, düzgün və vaxtında olan statistik məlumatlarla təmin olunmasına xüsusi fikir verilmişdir. Bu funksiyanı yerinə yetirmək üçün Dövlət Statistika Komitəsi istifadəçiləri müntəzəm olaraq təhlili məruzələr, ekspres-məlumatlar, mətbu-məlumatlar, statistik bülletenlər və digər statistik məlumatlarla təmin etmişdir. Bu məqsədlə, il ərzində ümumilikdə Dövlət Statistika Komitəsi Aparatı və onun yerli statistika orqanları tərəfindən 1510 təhlili məruzə, 85 ekspres-məlumat və 63 adda mətbu-məlumat hazırlanmış və bir sıra təhlili məruzələrdə ölkənin məlumatlarının dünyanın və MDB-nin digər ölkələrinin məlumatları ilə müqayisəsi verilmişdir. Hazırlanan materiallarda Dövlət Statistika Komitəsinin məlumatları ilə yanaşı, digər rəsmi statistik məlumat istehsalçılarının məlumatlarından da istifadə edilmişdir. Hazırlanan məruzələrlə ölkənin sosial-iqtisadi inkişafı, yerli özünüidarəetmə orqanlarının daxilolmaları və büdcə vəsaitlərinin istifadəsi, sənayenin və nəqliyyat kompleksinin inkişafı, inşaat kompleksinin və yeni istehsal və xidmət obyektlərinin istifadəyə verilməsi, torpaqdan istifadə, buğda istehsalı, istehlak bazarında qiymətlərin dəyişməsi, xarici ticarət dövriyyəsi, xarici ticarət əlaqələri, büdcədən maliyyələşdirilən müəssisə və təşkilatlarda istifadə edilmiş müxtəlif növ enerji, su və rabitə xidmətləri, enerji məhsullarının istehlakı, sosial təminat, qızların erkən nikaha daxil olması və rəsmi nikahdan kənar doğum halları, regionlarda yaradılmış yeni iş yerləri, ümumi daxili məhsul istehsalı və onun istifadəsi, ölkənin informasiya və rabitə sektorunun inkişafı, informasiya və kommunikasiya texnologiyalarından istifadə, tikinti müəssisələrində işçilərin sayı və əmək haqqı, əmək bazarı, ümumtəhsil məktəblərində davamiyyət səviyyəsi, məktəbəqədər təhsil müəssisələrinin fəaliyyəti, əhalinin sağlamlığı, ətraf mühitin vəziyyəti, məhsul istehsalı və xidmətlərin göstərilməsi üzrə xərclərin strukturu, sənayenin istehsal resurslarından istifadə və bir sıra digər aktual məsələlər əhatə edilmişdir.

Dövlət idarəetmə orqanları, beynəlxalq təşkilatlar, statistiklər, iqtisadçılar, maraqlı elmi işçilər, mütəxəssislər üçün nəzərdə tutulmuş ölkənin inkişafı haqqında statistik məlumatları əks etdirən statistik bülletenlərin hazırlanması hesabat dövründə də davam etdirilmişdir. İl ərzində yığılmış məlumatlar əsasında 57 adda (6,3 min nüsxə) statistik bülleten hazırlanaraq istifadəçilərə çatdırılmışdır. Nazirlər Kabinetinin “2012-ci il dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin Azərbaycan Prezidentinə təqdim olunması barədə” 2011-ci il 26 yanvar tarixli, 25 nömrəli sərəncamına uyğun olaraq, Dövlət Statistika Komitəsi 2011-ci ildə ölkənin orta müddətli iqtisadi və sosial inkişaf proqramını dəqiqləşdirmək üçün 2010-cu ilin ilkin statistik məlumatlarını İqtisadi İnkişaf və Maliyyə nazirliklərinə və növbəti büdcə ili və gələn üç il üçün ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının, dövlət büdcəsi layihəsinin və toplu maliyyə balansının hazırlanması üçün zəruri statistik məlumatları mütəmadi olaraq İqtisadi İnkişaf, Maliyyə və Vergilər nazirliklərinə və digər aidiyyəti təşkilatlara, “2008-2012-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramı”nın 2011-ci il iyul ayının 1-i tarixinə icra vəziyyəti və əldə olunmuş nəticələr barədə məlumatları Maliyyə və İqtisadi İnkişaf nazirliklərinə təqdim etmişdir.

Müasir rəsmi statistikanın istifadəçilərin müxtəlif qruplarının ehtiyaclarına yönəldiyini nəzərə alaraq, ölkənin statistika sisteminin fəaliyyətində istifadəçilərin statistik məlumatlarla təmin edilməsi mühüm yer tutmuşdur. Bu vəzifənin keyfiyyətlə yerinə yetirilməsi üçün statistik məlumatların nəşri və yayılması istiqamətində işlər müntəzəm olaraq

genişləndirilmiş, ölkənin kütləvi informasiya vasitələrində, radio və televiziya kanallarında işıqlandırılmışdır. Hər rübün yekunu üzrə ölkənin rəsmi iqtisadi-statistik göstəricilərinə dair kütləvi informasiya vasitələrinin nümayəndələri ilə mətbuat konfranslarının keçirilməsi davam etdirilmişdir. Beynəlxalq standartlara cavab verən "Azərbaycanın statistik göstəriciləri", "Müstəqil Azərbaycan - 20", "Yeni tərəqqi illəri", "Azərbaycanın regionları", "Azərbaycanın demoqrafik göstəriciləri", "Azərbaycanın milli hesabları", "Azərbaycanda qadınlar və kişilər", "Azərbaycanda uşaqlar", "Azərbaycanda səhiyyə, sosial təminat və ətraf mühit", "Azərbaycanda informasiya cəmiyyəti", "Azərbaycanda kiçik sahibkarlıq", "Azərbaycanda telekommunikasiya və poçt", "Əmək bazarı", "Azərbaycanda turizm", "Azərbaycanda qiymətlər" və digər məzmunlu 30-dan çox adda müxtəlif sahələrə dair illik məcmuələr nəşr etdirilmişdir ki, bunlar da ölkədə baş verən iqtisadi və sosial proseslərin inkişafı haqqında məlumatların əldə olunmasında mühüm əhəmiyyət kəsb edir. Bu nəşrlər Komitənin internet saytında yerləşdirilməklə, istifadəçilərə pulsuz istifadə imkanları verilmişdir. Statistik məcmuələrin istifadəçilər arasında yayılması işinin daha yaxşı təşkili üçün "Statistik nəşrlərin kataloqu – 2011" kitabçası hazırlanaraq ölkə və beynəlxalq istifadəçilər arasında yayılmışdır. 2011-ci il ərzində kitabxananın xidmətindən 2993 nəfər oxucu istifadə etmişdir. Dövlət Statistika Komitəsinin internet səhifəsindən hər gün orta hesabla 650 istifadəçi bəhrələnmişdir və hər gün baxılan səhifələrin orta sayı 3200-ə çatmışdır ki, bu da 2010-cu ildəkindən təqribən 2 dəfə çoxdur.

İstifadəçilərlə işi daha da təkmilləşdirmək, onu müasir tələblər səviyyəsində qurmaq məqsədilə "Statistik məlumatların istifadəçilərinin rəyinin öyrənilməsinə dair" müayinə keçirilmişdir. 10 ballıq qiymətləndirmə sisteminə uyğun olaraq, statistik məlumatların istifadəçilərinin məmnunluq indeksi 8,4-ə, statistika orqanlarına inam indeksi 8,2-yə bərabər olmuşdur ki, bu da əvvəlki ildəki indekslə müqayisədə çoxdur.

Hesabat dövründə Dövlət Statistika Komitəsinin fəaliyyətində yeni istiqamətlərdən biri keyfiyyətin idarə edilməsi sisteminin tətbiqi olmuşdur. Dövlət Statistika Komitəsinin kollegiyası tərəfindən təsdiq olunmuş "Keyfiyyətin idarə edilməsi sistemi" haqqında sənədlər toplusunun tələblərinə uyğun olaraq, 2011-ci ildə Sənaye, nəqliyyat və rabitə və Qiymət statistikası şöbələrində keyfiyyətin idarə edilməsi sisteminin tətbiqinə başlanmış və müvəffəqiyyətlə başa çatdırılmışdır. Göstərilən şöbələrin təcrübəsindən istifadə etməklə, 2012-ci ildə bu işin Aparatın bütün şöbələrində, həmçinin bir sıra yerli statistika orqanlarında tətbiqi və standartlaşdırma sahəsində fəaliyyət göstərən orqanlar qarşısında bu işin sertifikatlaşdırılması məsələsinin qaldırılması nəzərdə tutulur.

Statistika sahəsində ikitərəfli və çoxtərəfli beynəlxalq əməkdaşlıq rəsmi statistika sisteminin yaxşılaşmasına, məlumatların və praktiki biliklərin mübadiləsinə, rəsmi statistikanın əhatə dairəsinin genişlənməsinə və keyfiyyətinin yüksəlməsinə, son nəticədə bütövlükdə statistika sisteminin işinin təkmilləşdirilməsinə təsir göstərir. Göstərilənləri nəzərə alaraq, 2011-ci ildə beynəlxalq təşkilatlar və digər ölkələrin statistika orqanları ilə əməkdaşlıq daha da inkişaf etdirilmişdir. Dövlət Statistika Komitəsi BMT və onun regional iqtisadi komissiyaları, BVF, BƏT, Avrostat, Avropa Komissiyası, YUNİCEF, YUNESCO, Dünya Bankı, Asiya İnkişaf Bankı, İƏT, MDB Dövlətlərarası Statistika Komitəsi və bir sıra digər beynəlxalq təşkilatların və dünya ölkələrinin statistika xidmətləri ilə statistik məlumatların mübadiləsini həyata keçirmiş, Komitənin mütəxəssisləri onlar tərəfindən təşkil

edilmiş konfrans, seminar və digər tədbirlərdə iştirak etmişdir. Avropa Qonşuluq Siyasəti çərçivəsində Azərbaycan və Avropa İttifaqı arasında qəbul olunmuş Fəaliyyət Planında statistikaya həsr olunmuş tədbirlərin yerinə yetirilməsi müəyyənləşdirilmiş qaydada həyata keçirilmiş, 2011-ci ildə yerinə yetirilmiş işlərə müntəzəm olaraq diqqət yetirilmiş və bununla bağlı hesabat hazırlanaraq İqtisadi İnkişaf və Xarici İşlər nazirlikərinə təqdim edilmişdir.

Avropa Qonşuluq Siyasəti çərçivəsində 2009-cu ilin noyabr ayından icrasına başlanmış birinci Tvinninq proqramı daxilində “Milli hesablar, müşahidə olunmayan iqtisadiyyat, biznes statistikası və istehsalçı qiymətləri indeksi sahələrinin Avropa standartlarına çatdırılması sahəsində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə dəstək göstərilməsi”nə dair proqram üzrə işlər davam etdirilmiş, 2011-ci ilin noyabr ayının 10 -11-də onun yekunlarına həsr olunmuş konfrans keçirilmişdir. Konfransın işində Avrostatın departament direktoru, Almaniya, Bolqarıstan, Çexiya və Litva statistika təşkilatlarının rəhbərləri və mütəxəssisləri, bu ölkələrin Azərbaycandakı səfirliklərinin, Avropa İttifaqı, Dünya Bankı, YUNİSEF, UNDP, GİZ (Almaniya), FAO-nun ölkəmizdəki nümayəndəliklərinin və eləcə də Azərbaycan Respublikasının müvafiq nazirlik və komitələrinin nümayəndələri, Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının üzvləri iştirak etmişlər. Layihənin yekunları Avrostatın nümayəndəsi və digər iştirakçılar tərəfindən müsbət qiymətləndirilmişdir. Konfransdan sonra Almaniya Federal Statistika İdarəsinin Prezidentindən alınmış məktubda deyilir: “Almaniya rəsmi statistikası üçün bu Tvinninq layihəsi bu vaxtadək regionda keçirdiyimiz ən böyük əməkdaşlıq layihəsi idi. Layihənin birgə icrası Azərbaycan-Almaniya əməkdaşlığının keyfiyyət və səmərəliliyinə bir sübutdur”. Bu proqramın müvəffəqiyyətlə başa çatması, Dövlət Statistika Komitəsi tərəfindən istehsal olunan statistik göstəricilərin daha yaxşı keyfiyyətli və müqayisəli olması beynəlxalq təşkilatlarla məlumat mübadiləsinin təkmilləşdirilməsinə imkan yaratmışdır. Büdcə yardımı proqramı daxilində, Nazirlər Kabinetinin 16 dekabr 2009-cu il tarixli, 191 nömrəli qərarına uyğun olaraq, “Avropa Komissiyasının Azərbaycan Respublikasına Energetika Sahəsində İslahatlara Dəstək Proqramı”nda nəzərdə tutulmuş statistika ilə bağlı tədbirlərin yerinə yetirilməsinə hazırlıq işləri davam etdirilmişdir. Hesabat dövründə TAİEX (Texniki Yardım və İnformasiya Mübadiləsi) proqramının imkanlarından da geniş istifadə edilmişdir. Bu proqram çərçivəsində “Statistikada Coğrafi İnformasiya sisteminin yaradılması”, “Avropa İttifaqının tələbləri və inkişaf istiqamətlərinə uyğun olaraq Statistik Metaməlumatlar üçün informasiya sistemi”, “Keyfiyyətin idarə edilməsi sistemi” və “Gəlirlər və yaşayış səviyyəsi” haqqında seminarlar təşkil edilmişdir. Qeyd olunan nailiyyətləri daha da inkişaf etdirmək məqsədi ilə Azərbaycan Respublikası Baş nazirinin müavini cənab A.Şərifovun 18 avqust 2011-ci il tarixli 17/3639-15/22 nömrəli və 25 noyabr 2011-ci il tarixli, 17/17/1682-15 nömrəli tapşırıqlarına uyğun olaraq, statistika sahəsində TAİEX və 2-ci Tvinninq layihələrinə dair təkliflər hazırlanmış və uyğun olaraq Nazirlər Kabinetinə və İqtisadi İnkişaf Nazirliyinə göndərilmişdir.

Hesabat ilində TİKA proqramı çərçivəsində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Türkiyə Statistika İnstitutu arasında əlaqələr fəallaşmış, müəssisələr və balıqçılıq statistikası sahəsində qarşılıqlı təcrübə mübadiləsi həyata keçirilmişdir.

Dövlət Statistika Komitəsinin mütəxəssisləri Keyfiyyətin idarə olunması sistemi sahəsində Litva Statistika Departamentində, ticarət statistikasında statistik təsnifatların tətbiqi

üzrə Ukrayna Dövlət Statistika Komitəsində təcrübə mübadiləsi keçmişdir. Sənaye, nəqliyyat və rabitə statistikası şöbəsinin müdiri Y.Yusifov tərəfindən hazırlanmış "Azərbaycanda enerji statistikası"na dair məqalə BMT-nin Statistika Şöbəsinin 2011-ci il dekabr ayının xəbərlər bülleteninin 7/8 nömrəli buraxılışında dərc olunmuşdur. Y.Yusifov enerji statistikası sahəsində Azərbaycanım təcrübəsini bölüşmək məqsədilə Qazaxıstanın N.Nazarbayev adına Universitetinin Beynəlxalq Enerji Agentliyi ilə birlikdə enerji statistikasına dair təşkil etdiyi seminara dəvət olunmuş və o, bu sahədə Dövlət Statistika Komitəsinin təcrübəsinə dair iştirakçılar qarşısında çıxış etmişdir.

2011-ci ildə Dövlət Statistika Komitəsi beynəlxalq səviyyəli tədbirlərin ölkədə keçirilməsinə ev sahibliyi etmək istiqamətində öz fəaliyyətini gücləndirmişdir. Aprel ayında İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) statistika və iqtisadi tədqiqatlar üzrə əlaqələndirici şəxslərinin 8-ci toplantısı keçirilmişdir. Toplantıda İƏT-ə daxil olan ölkələrin statistika orqanlarının nümayəndələri ilə yanaşı, İƏT-in Baş Katibliyinin, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və İqtisadi İnkişaf Nazirliyinin nümayəndələri də iştirak etmişdir. İkinci tədbir isə sentyabr ayında BMT-nin Statistika Şöbəsinin təşkilatçılığı ilə enerji üzrə beynəlxalq regional seminarın keçirilməsinə həsr olunmuşdur. Seminar BMT-nin Statistika Komissiyasının 42-ci sessiyasında (2011-ci ilin fevral ayında) qəbul edilmiş "Enerji statistikasına dair beynəlxalq tövsiyələrin təcrübədə tətbiqi"nə dair məsələnin və hazırlanmaqda olan "Enerji statistikasının aparılmasına dair vəsait"in müzakirəsinə həsr olunmuşdur. Seminarda BMT, Beynəlxalq Enerji Agentliyi də daxil olmaqla, beynəlxalq təşkilatlardan və xarici ölkələrdən 30-a yaxın nümayəndə iştirak etmişdir. BMT-nin maliyyə dəstəyi və Lomonosov adına Moskva Dövlət Universitetinin mütəxəssisləri tərəfindən noyabr ayında həyata keçirilən digər seminar "Demoqrafik proqnozlaşdırma"ya həsr edilmişdir. Bu seminarda statistika orqanlarının nümayəndələri ilə yanaşı, İqtisadi İnkişaf və Səhiyyə nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Azərbaycan Milli Elmlər Akademiyasının, Əmək və Sosial Problemlər üzrə Elmi Tədqiqat və Tədris Mərkəzinin, İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (cəmi 21 nəfər) nümayəndələri iştirak etmişlər. Bunlardan əlavə, statistika sahəsində mütəxəssislərin beynəlxalq statistika təşkilatlarına üzv seçilməsi işi də davam etdirilmişdir. 2011-ci ildə Dövlət Statistika Komitəsi Aparatının Sənaye, nəqliyyat və rabitə statistikası şöbəsinin müdiri Y.Yusifov BMT-nin Asiya və Sakit okean ölkələri üzrə İqtisadi və Sosial Komissiyasının İqtisadi statistika üzrə idarəetmə qrupunun üzvü, Əmək statistikası şöbəsinin müdirinin müavini N.Xuduzadə isə BMT-nin Asiya və Sakit okean ölkələri üzrə İqtisadi və Sosial Komissiyanın Sosial statistika üzrə ekspert qrupunun üzvü (hər iki halda 58 ölkədən 14 ölkənin nümayəndəsi) seçilmişdir. Beləliklə, hazırda Dövlət Statistika Komitəsinin mütəxəssisləri 6 beynəlxalq təşkilatda statistika sahəsində işçi və ya ekspert qrupunun üzvü kimi fəaliyyət göstərir. Göstərilənlər Azərbaycanın statistika sahəsində iş təcrübəsinin beynəlxalq səviyyədə tanınmasına dəlalət edir. Bunu ölkədə rəsmi statistika sahəsində islahatların nəticələri və gələcək inkişaf istiqamətlərinə dair 2010-cu ildə baş tutmuş və 2011-ci ilin fevral ayında yekunlaşdırılmış BMT-nin AİK, Avrostat və Avropa Azad Ticarət Assosiasiyası tərəfindən həyata keçirilmiş Qlobal Qiymətləndirmə sənədləri də təsdiq edir. Qiymətləndirmə üzrə yekun materialda deyilir: "Milli Statistika Sisteminin (MSS) peşəkar müstəqillik, obyektivlik və ədalətlilik prinsiplərinin "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununda öz əksini

tapması, Dövlətstatkomun məlumatların toplanmasında (fiziki şəxslər və inzibati mənbələrdən məlumat toplanması da daxil olmaqla) təsirli və şəffaf səlahiyyətlərə malik olması, statistik məxfilik anlayışının qanunda çox dəqiq qeyd olunması, prosedura və tədbirlərin məxfilik prinsiplərinə əməl olunmaqla təmin edilməsi təqdirəlayiqdir. .... Yaxın gələcəkdə daha sistematik və mükəmməl idarəetmə, nəzarət və qiymətləndirmə planlaşdırılır".

İşlənən informasiyaların həcminin artdığı və informasiya texnologiyalarının və texniki vasitələrin imkanlarının genişləndiyi şəraitdə Azərbaycan statistikası üçün vacib məsələlərdən biri statistik məlumatların elektron yığılmasının tətbiqi, Dövlət Statistika Komitəsinin İnternet-səhifəsinin və şəbəkə infrastrukturunun inkişafı da daxil edilməklə, statistik məlumatların yığılması, işlənməsi və yayılması sisteminin yeniləşdirilməsi hesab edilir. Artıq ölkədə statistika orqanları tərəfindən hesabatların elektron formada yığılmasına başlanmışdır. Bununla əlaqədar olaraq, bir çox rəsmi statistika hesabatı formaları Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsində yerləşdirilmişdir. Belə yanaşma respondentlərə Dövlət Statistika Komitəsi tərəfindən təklif olunan vahid universal proqramdan rəsmi statistika hesabatı formalarının doldurulması üçün pulsuz istifadə etməyə imkan verir. Bu, statistika məlumatlarının təqdim olunmasına respondentlərin çəkdikləri xərclərin azalmasına və statistik müşahidələrin yekunlarının keyfiyyətinin yüksəlməsinə şərait yaradır.

Hesabat dövründə Komitədə İKT-nin tərkib hissəsi olan Veb səhifənin inkişaf etdirilməsi, müvafiq normativ hüquqi aktlardan irəli gələn vəzifələrin yerinə yetirilməsi, informasiya açıqlığının təmin edilməsi üçün yeni texnologiyaların tətbiqi, internet resurslarının yaradılması və daim yeniləşdirilməsi sahəsində, ictimaiyyət və istifadəçilərin statistik məlumatlarla təmin edilməsinin yaxşılaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir. Dövlət Statistika Komitəsinin Veb səhifəsi yenidən qurulmuş və yerləşdirilən informasiyaların həcminin artırılması, yeniləşdirilməsi və haqqı ödənilmədən istifadəçilərə təqdim olunması təmin edilmişdir. Dövri olaraq statistikanın bütün sahələrini əhatə edən illik, rüblük və digər yeni məlumatların səhifədə yerləşdirilməsi həyata keçirilmiş, səhifənin strukturunda daim dəyişikliklər edilərək məlumatın əldə edilməsinin asanlaşdırılması istiqamətində proqramlaşdırma işləri yerinə yetirilmiş və səhifənin idarə olunması həyata keçirilmişdir. Səhifədə yerləşdirilmiş məlumatların istifadəsinin asanlaşdırılması məqsədi ilə əldə edilən məlumatlara html, pdf və excel formatlarda baxmaq olur ki, bu da məlumatdan daha səmərəli istifadə olunmasına imkan verir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri cənab Ramiz Mehdiyevin 12 iyul 2011-ci il tarixli, 2/555 nömrəli "Respublika vətəndaşlarının Dövlət hakimiyyəti orqanlarına müraciət etmək imkanlarının artırılması və müraciətlərə baxılması nəticələrinin öyrənilməsini asanlaşdırmaq məqsədilə edilmiş tövsiyələr"ə dair məktubunun tələblərinə uyğun olaraq, Dövlət Statistika Komitəsinin Veb səhifəsində müvafiq dəyişikliklər aparılmış, "Məktub yazmaq", "Qəbul günləri" və "Əlaqə" bölmələri digər sətirlərdən götürülərək vətəndaşların daha tez görməsi üçün müraciət edə biləcəkləri yerdə yerləşdirilmiş və bu bölmələrin daim işlək vəziyyətdə saxlanılması təmin edilmişdir.

"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23.05.2011-ci il tarixli, 429 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Dövlət Statistika Komitəsinin

http://www.azstat.org/ səhifəsində xüsusi Elektron xidmətlər bölməsi yaradılmışdır. Bu bölmədə elektron xidmətlərin adları (mətbu məlumatların yayım təqvimi, keçiriləcək treninq və seminarlar, əldə etmək istədiyiniz statistik məlumatlar, əldə etmək istədiyiniz statistik nəşrlər, digər statistik xidmətlər) göstərilmişdir. Bununla da, statistik məlumatların əldə edilməsi üçün şəxslərin bu bölmədən heç bir sənəd təqdim etmədən maneəsiz, sərbəst istifadəsi təmin olunmuşdur.

Elektron xidmət bölməsi vasitəsi ilə aparılan əməliyyatların və fərdi məlumatların təhlükəsizliyinin təmin olunması üçün əməliyyat sistemi və texniki vasitələrlə müvafiq tədbirlər həyata keçirilmişdir.

Bu sahədə qarşıda duran vəzifələri daha keyfiyyətli yerinə yetirmək və texniki bazanı gücləndirmək məqsədilə 2011-ci ildə 2 ədəd SERVER, mərkəzi aparatın və yerli statistika orqanlarının texniki imkanlarının artırılması üçün 63 ədəd kompüter, sənəd dövriyyəsi sisteminin bütün funksiyalarının tətbiqinə nail olmağa imkan verən, geniş parametrlərə malik 100 ədəd çap, skaner və surətçıxarma qurğusu və avadanlıqlar alınaraq quraşdırılmışdır.

Hesabat dövründə Dövlət Statistika Komitəsinin Aparatına və yerli statistika orqanlarının ünvanlarına vətəndaşlardan 168 (o cümlədən şikayət xarakterli 17) ərizə daxil olmuşdur. Daxil olmuş ərizələrin hər birinə müəyyənləşdirilmiş qaydada cavab verilmiş və müvafiq tədbirlər görülmüşdür.

Dövlət Statistika Komitəsi sistemində kadrların peşə səviyyəsinin artırılması, sistemin yüksək səviyyəli mütəxəssislərlə komplektləşdirilməsi və cavanlaşdırılması məqsədilə kadrların hazırlanması konsepsiyasına uyğun olaraq “Dövlət Statistika Komitəsi Aparatının şöbələrində yerli statistika orqanlarının mütəxəssisləri üçün təlim kurslarının təşkili” və “Dövlət Statistika Komitəsinin kadrların idarə edilməsi və kadr potensialının gücləndirilməsi üzrə strategiyası” hazırlanaraq təsdiq edilmişdir. Bilik səviyyələrini artırmaq məqsədilə beynəlxalq təşkilatlar tərəfindən təşkil edilmiş kurs, seminar və digər tədbirlərdə 70 nəfər mütəxəssis, o cümlədən Komitə sədri A.Vəliyev BMT Statistika Komissiyasının 42-ci sessiyasının işində iştirak etmişdir.

2011-ci ildə yerli statistika orqanlarının işçilərinin iş şəraitinin yaxşılaşdırılması məqsədilə, Gəncə şəhərində, Ağstafa, Hacıqabul, Qusar və Zaqatala rayonlarında statistika idarələri üçün yeni inzibati binaların tikintisi başa çatdırılmış, Qobustan, Gədəbəy, Göyçay, Daşkəsən, Lerik, Xızı, Saatlı, Tərtər, Ucar və Yardımlı rayonlarında isə binaların tikintisinə başlanmışdır.